# 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür




# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 245 (24.382)

31 dekabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik




# Müstəqilliyə, ərazi bütövlüyünə, suverenliyə aparan ideologiya

*Dünyanın ayrı-ayrı yerlərində yaşayan, fəaliyyət göstərən hər bir azərbaycanlının dilindən qopan sözünü, könlündən duyulan səsini, əməlini bir ideya altında, vahid amal uğrunda birləşdirməklə xalqımız qarşısında əvəzolunmaz tarixi xidmətini həyata keçirdi Ümummilli Liderimiz Heydər Əliyev.* ***"Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq Azərbaycançılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır",*** *– deyən dahi şəxsiyyət Azərbaycançılıq ideologiyasını inamlı sabahlar, işıqlı gələcək naminə hər bir həmvətənimizin həyat qayəsinə çevirə bildi. Bu ideologiya Ulu Öndərin 1969-82-ci illərdə ölkəmizə birinci rəhbərliyi dövründə reallaşdırdığı onilliklərə bərabər misilsiz işlərində, 1990-cı ildə doğulduğu torpağa tarixi qayıdışında, 1990-1993-cü illərdə Naxçıvandan başlayan xilaskarlıq missiyasında pərvəriş tapdı. Azərbaycançılıq öz təntənəsini muxtar respublikada SSRİ kimi nəhəng imperiyaya qarşı çıxaraq tarixi addımlar atan şəxsiyyətin qətiyyətində, qışın şaxta-boranında sərhəd dirəklərini söküb, bahar təravətində "Ümid" körpüsü çəkməklə həsrət buzlarını qıran dəmir biləklərdə, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul olunan tarixi Qərarda yaşayıb...*

*(ardı 4-cü səhifədə)*

## Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur.

Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlərboyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.

Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar.

Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.

Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi geniş qeyd olunsun.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tədbirlər planının hazırlanmasını və həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

## Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına bayram sovqatı aparılıb





Dekabrın 30-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında olub və burada müalicə alan hərbi qulluqçularla görüşüb. Hospitalın Poliklinika, Cərrahiyyə, Əməliyyat və Yoluxucu xəstəliklər bölmələrində olan səlahiyyətli nümayəndəyə hərbi tibb müəssisəsinin fəaliyyət imkanları barədə məlumat verilib. Qeyd edilib ki, muxtar respublikada ən böyük tibb müəssisələrindən biri olan mərkəzi hospitalın bütün bölmələri, o cümlədən əməliyyat otaqları ən müasir avadanlıqlarla təchiz olunub, peşəkar tibbi personalla komplektləşdirilib. Burada laparoskopik cihaz vasitəsilə qapalı əməliyyatların aparılması da mümkündür. İnfeksion xəstəliklərin müalicəsi hospitalın modul tipli yoluxucu xəstəliklər

*Ardı 2-ci səhifədə*







bölməsində həyata keçirilir.

Fuad Nəcəfli hərbi qulluqçuların səhhəti ilə maraqlanıb, onları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edərək hər birinə hədiyyələr təqdim edib.

Sonra Mərkəzi Hospitalın tibbi heyəti və hərbi qulluqçularla görüşən Fuad Nəcəfli 2023-cü ilin ölkəmiz üçün olduqca uğurlu il olduğunu, “Heydər Əliyev İli”ndə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi, qəhrəman övladlarımızın şücaəti nəticəsində suverenliyimizin tam bərpa olunduğunu bildirib. Qeyd edib ki, bu əlamətdar ildə Naxçıvanda da mühüm layihələrə başlanılıb.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrasının Naxçıvanda böyük infrastruktur və sosial layihələrin icrasına geniş imkanlar yaradacağını vurğulayan Fuad Nəcəfli tibbi personala Vətən keşikçilərinin qayğısına qaldıqlarına görə təşəkkür edib, hər kəsə qarşıdan gələn bayramlar münasibətilə təbriklərini çatdırıb, 2024-cü ildə daha böyük uğurlar və cansağlığı arzulayıb.

Tibb xidməti polkovniki Ramil Cəfərli göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Qeyd edək ki, həmin gün Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında müalicə alan hərbi qulluqçular, eləcə də tibb işçilərinə 200 bayram hədiyyəsi verilib, gətirilmiş ərzaq məhsulları hospitala təqdim olunub.

**“Şərq qapısı”**

## Naxçıvanda 2023-cü ilin təhsil yekunlarına dair mükafatlandırma tədbiri keçirilib

Dekabrın 30-da Naxçıvan şəhərindəki “Duzdağ” oteldə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş 2023-cü ilin təhsil yekunlarına dair mükafatlandırma tədbiri keçirilib.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbriklərini çatdıran Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli geridə qoyduğumuz ili ölkəmiz üçün əlamətdar il kimi dəyərləndirib. Vurğulayıb ki, 2023-cü ili Azərbaycan tarixinə şanlı səhifə kimi yazan Müzəffər Ali Baş Komandanımızın qətiyyəti və qüdrətli ordumuzun şücaəti sayəsində Dövlət Bayrağımız Azərbaycanın bütün bölgələrində dalğalanır. Bu gün Xankəndidə sosial tədbirlər keçirilir, Şuşada mədəni-kütləvi layihələr reallaşdırılır. Biz bu uğura xalq-iqtidar birliyi sayəsində nail olmuşuq.







Fuad Nəcəfli qeyd edib ki, bu il anadan olmasının 100-cü ildönümünü böyük uğurlarla və fəxarətlə qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyev hər zaman sülhün tərəfdarı olub. Ulu Öndərimizin humanist və bəşəri ideyaları Heydər Əliyev Fondu tərəfindən təbliğ edilir. Bütün bu uğurları Naxçıvanda da çox yüksək enerji ilə qeyd edirik. Ölkəmizin digər bölgələri kimi muxtar respublikada da uğurlu sosial-iqtisadi islahatlar həyata keçirilir. Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiqlənmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” icra olunur. 11 prioritet sahəni əhatə edən Dövlət Proqramının ən önəmli hədəflərindən biri də təhsilin hərtərəfli inkişafına nail olmaqdır.



Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, 2018-ci ildən sonra Naxçıvan təhsilində müəyyən geriləmələr müşahidə olunub. Buna görə də bu ildən muxtar respublikada təhsil sahəsində müəyyən kadr islahatları həyata keçirilib. Dövlət Proqramından irəli gələn tədbirlərin icrasının və keçirilən islahatların muxtar respublika təhsilini daha böyük inkişafa aparacağına əminliyini bildirən Fuad Nəcəfli bu sahədə əməyi olan hər kəsə təşəkkür edib.





Tədbirdə Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Elxan Nəcəfov çıxış edərək təhsil sahəsində son 3 ayın statistikasını və 2024-cü ildə qarşıda duran əsas fəaliyyət istiqamətlərini diqqətə çatdırıb. Qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”ndan irəli gələn məsələlərin icrası, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, müəllimlərin peşəkar inkişaf ehtiyaclarının müəyyənləşdirilməsi, direktorların və direktor müavinlərinin, müəllimlərin işə qəbulu müsabiqələrinin, təhsilverənlərin sertifikatlaşdırılması prosesinin keçirilməsi, müxtəlif istiqamətlər üzrə şagirdlərin təlim nailiyyətlərinin yüksəldilməsi, Cəlil Məmmədquluzadə adına humanitar fənlər, Nəsirəddin Tusi adına riyaziyyat və Hüseyn Cavid adına mütaliə müsabiqələrinin keçirilməsi qarşıda duran əsas hədəflərdəndir.







Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev təhsil sahəsinin inkişafının, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılmasının, cəmiyyətdə müəllimin nüfuzunun daha da artırılmasının daim dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu bildirib, Təhsil Nazirliyi ilə birgə il ərzində keçirilən tədbirlər barədə məlumat verib.

Sonra mükafatlandırma mərasimi olub.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyət göstərən şəhid valideynlərinə mükafatları təqdim edib, onlarla xatirə fotosu çəkdirib.

Tədbirdə Təhsil Nazirliyinin və təhsil şöbələrinin bir qrup əməkdaşına, eləcə də səmərəli pedaqoji fəaliyyətinə görə fərqlənən müəllimlərə, o cümlədən məktəblərdə hərbi rəhbər vəzifəsində çalışan qazilərə də mükafatlar təqdim edilib.

Həmçinin təhsilin inkişafındakı xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiklərinə görə bir sıra təhsil işçisi “Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunub.

2023-cü il ərzində bir sıra uğurlar əldə etmiş şagirdlər də unudulmayıb. Təhsildə, beynəlxalq və ölkədaxili olimpiada, müsabiqə və yarışlarda uğur qazanmış, müxtəlif idman yarışlarının qalibi olmuş şagirdlərə mükafatlar təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

**“Şərq qapısı”**

## Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərgi və film təqdim olunub





Dekabrın 30-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər rəsmi şəxslər Naxçıvan Dövlət Milli Dram Teatrında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərgi və filmə baxıblar.

Məlumat verilib ki, sərgidə Naxçıvan rəssamlarının Ulu Öndərimizə həsr etdiyi portret, rəsm və əl işləri, dahi rəhbərin mənalı ömür yoluna həsr olunmuş nəşrlər, o cümlədən digər vəsaitlər nümayiş etdirilir. Naxçıvan televiziyasının “Heydər Əliyev İli”nə həsr etdiyi “100-cü ilə 10 film” layihəsi çərçivəsində hazırladığı filmlər, veb və audiomateriallar sərgidə öz yerini alıb. Ümummilli Liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövrü, həmin çətin illərdə dahi rəhbərin “Şərq qapısı” qəzetinə verdiyi müsahibələr, Ulu Öndərin zəngin irsindən bəhs edən qəzet məqalələri sərgi iştirakçılarına təqdim olunub.

Sonra tədbir iştirakçıları Heydər Əliyev Fondu tərəfindən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə hazırlanmış “İz” sənədli filmini izləyiblər.

**“Şərq qapısı”**







## Nazirlər Kabinetinin məlumatı

Nazirlər Kabineti tərəfindən dekabr ayının ikinci 15 günü ərzində bir sıra qərarlar qəbul edilib, sərəncamlar imzalanıb.

Məlumat üçün qeyd edək ki, “Naxçıvan Muxtar Respublikasının “Arazboyu” Dövlət Təbiət Yasaqlığı haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Fərmanının ləğv edilməsi və “Naxçıvan Muxtar Respublikasının “Arpaçay” Dövlət Təbiət Yasaqlığının yaradılması haqqında” Ali Məclis sədrinin müvafiq Fərmanında dəyişiklik edilməsi barədə Ali Məclis sədrinin müvafiq Fərmanının icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2023-cü il 25 dekabr tarixində Sərəncam imzalanıb. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırılmaqla, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etmələri tapşırılıb.

Həmçinin Nazirlər Kabinetinin eyni tarixli digər Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Ali Məclis sədrinin müvafiq Fərmanının icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının Fərmana uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Nazirlər Kabinetinə məlumat verilməsi tapşırılmışdır.

Bundan başqa, Nazirlər Kabinetinin 2023-cü il 27 dekabr tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə Xidmətlər Zərfi”ndə dəyişiklik edilib. Qərara əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən xidmətlər zərfində dəyişikliklər edilərək tibbi xidmətlərin sayı və çeşidi artırılıb, eləcə də bəzi xidmətlərin qiyməti yenilənib.

Belə ki, Nazirlər Kabineti tərəfindən təsdiq edilən “İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi”nə 794 sayda yeni tibbi xidmət əlavə edilib. Nəticədə, “Xidmətlər Zərfi”ndəki tibbi xidmətlərin sayı 3344-ə çatdırılıb. Bu xidmətlərin 33-ü invaziv radioloji, 43-ü ambulator, 200-ü laborator, 522-si isə stasionar tibbi xidmətlərdir. Yeni xidmətlər sırasına vətər, əzələ, sümük iliyi, böyrək və qaraciyər transplantasiyası əməliyyatları da əlavə olunub. Təminata alınmış əməliyyatlar sırasına ürək qapaqlarının dəyişdirilməsi və təmiri, anadangəlmə ürək qüsurlarının cərrahiyyəsi, minimal invaziv üsulla həyata keçirilən endovaskulyar əməliyyatlar, beyin və beyin qişalarında aparılan əməliyyatlar, xoşxassəli beyin şişlərinin çıxarılması, sümük, əzələ uzadılması, serebral iflic zamanı aşağı ətraflarda aparılan bükücü vətərin uzadılması, vətərin fiksasiyası, skolioz əməliyyatı kimi dəyəri yüksək olan tibbi xidmətlər əlavə olunub.

Nazirlər Kabineti tərəfindən “Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının strukturu və ştat cədvəlinin təsdiq edilməsi” və “Bir sıra təşkilatların, publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan bəzi hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi barədə” qərarlarında dəyişiklik edilmiş, Zəngəzur Milli Parkının strukturu və ştat cədvəli təsdiq edilmişdir.

Eləcə də Nazirlər Kabinetinin 2023-cü il 27 dekabr tarixli Qərarı ilə “İcbari tibbi sığorta üzrə “Xidmətlər Zərfi”ndə nəzərdə tutulmayan, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tibb müəssisələri tərəfindən həyata keçirilən bir sıra tibbi xidmətlərin haqqının müəyyənləşdirilməsi barədə” və “Naxçıvan Muxtar Respublikasının Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən göstərilən ödənişli tibbi xidmət növlərinin qiymət cədvəli”nin təsdiq edilməsi haqqında” qərarları ləğv edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının ləğv edilməsi barədə” və “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişaf Agentliyi” publik hüquqi şəxsin ləğv edilməsi barədə” sərəncamlarının icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən 2023-cü il 29 dekabr tarixində Sərəncam imzalanıb. Aidiyyəti dövlət orqanlarına normativ-hüquqi aktların Sərəncama uyğunlaşması barədə təkliflərin Nazirlər Kabinetinə təqdim edilməsi üçün vaxt müəyyən edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin müvafiq Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın təsdiq edilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” və “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” qərarlarında dəyişiklik edilib.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Ölkə Prezidentinin Naxçıvanın 100 illik yubileyi ilə bağlı imzaladığı Sərəncam naxçıvanlılara böyük sevinc bəxş etdi



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev min illərdir ki, xalqımız nəsildən-nəslə ötürə-ötürə ən böyük ata-baba əmanəti kimi yaşatdığı şərəfli tariximizə son illərdə vurulmuş zərbəni 44 gün 23 saat ərzində sağaltdı. Bununla da qürurumuzun Xankəndi zirvəsini, ərazi bütövlüyümüzün Qarabağ böyüklüyünü özümüzə qaytardı. Azərbaycançılıq ideologiyasının böyük dəyər daşıdığını, bu dəyərin hər bir azərbaycanlı üçün müqəddəs məktəb olduğunu dünyaya göstərdi – həm cəbhədə, həm də siyasət aləmində. Böyük strateq olduğunu sübuta yetirdi. Sübuta yetirdi ki, ata vəsiyyətinə sadiq qalmaq, bu vəsiyyətə əməl etmək xalqımızın qanı ilə gələn ən böyük vəzifədir.

Bu günlərdə cənab Prezidentin atdığı daha bir addım xalqımıza, naxçıvanlılara böyük sevinc bəxş etdi. 2023-cü il 30 dekabr tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam dövlətçiliyimizin intişar, taleyüklü məsələlərin həllini tapdığı, blokada şəraitində yaşayan Naxçıvana böyük diqqət və qayğının ifadəsinə çevrildi. Bu Sərəncam ölkə başçısının Ulu Öndərin vaxtilə dediyi ***“Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır”*** qənaətinə böyük ehtiramı kimi dəyərləndirilir.

Azərbaycan xalqı səbirsizliklə 2024-cü ilin fevral ayının 7-ni gözləyir. O gün tariximizə əbədi hərflərlə yazılacaq, cənab İlham Əliyev xalqımızın dəstəyini yenidən görəcək. Bu dəstəyi O, xalqımızın yolunda öz gücü, qabiliyyəti, xalqımıza xidməti və sevgisi ilə qazanıb.

Biz naxçıvanlılar da qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ölkə başçısını təbrik edir və bundan sonra da müstəqil Azərbaycanın daha da inkişafı, tərəqqisi yolunda Ona sağlam həyat arzulayırıq.

✍ **Muxtar MƏMMƏDOV**



**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır.*

*2023-cü il "Heydər Əliyev İli"dir*

# Müstəqilliyə, ərazi bütövlüyünə, suverenliyə aparan ideologiya

*"Xalqımızı vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur".*

***"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından***

*(əvvəli 1-ci səhifədə)*

*Milli həmrəyliklə Milli Qurtuluşa*

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə keçirilən həmin sessiyada qəbul edilən tarixi Qərarla 31 dekabr günü muxtar respublikada ilk dəfə olaraq "Həmrəylik bayramı" kimi qeyd edildi. Ulu Öndərin həyata keçirdiyi uzaqgörən siyasət həm də müstəqil Azərbaycanın gələcək inkişafına əsaslı zəmin yaradan faktorlardan biri kimi tarixə düşdü.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsi Azərbaycanın qurtuluş, özünəqayıdış dövrü kimi xarakterikdir. Ona görə ki, həmin dövrdə muxtar respublikada görülən məqsədyönlü işlərdə milli birlik və həmrəylik ön sırada dayanırdı. İşğal təhlükəsi ilə üz-üzə, dünyadan, demək olar ki, təcrid vəziyyətdə qalmış Naxçıvanın sabaha gedən yolu, məhz muxtar respublika sakinlərinin Ümummilli Liderimizin ətrafında sıx birləşməsi, milli həmrəylik nümayiş etdirməsi ilə mümkün oldu. 1992-ci il noyabrın 21-də Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyasının əsas ideoloji xətti də milli birlik və həmrəylik, Azərbaycançılıq üzərində bərqərar edildi.

Naxçıvanda atılan tarixi addımlar uçurumun kənarında dayanan ölkəmizin siyasi həyatında dönüş nöqtəsinə çevrilməklə xalqımızı əbədi nicat yoluna çıxardı. 1993-cü ilin 15 iyununda milli həmrəylik Milli Qurtuluşa, intibaha rəvac verdi, xalqın təkidli tələbi ilə Ümummilli Liderimiz Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gəldi və bundan sonra Azərbaycan diasporunun və lobbisinin formalaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü işlər aparıldı. Dünya azərbaycanlılarının təşkilatlanması və ümummilli ideyalar ətrafında birləşdirilməsi yolunda həyata keçirilən tədbirlərdən biri görkəmli dövlət xadiminin "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 2001-ci il 23 may tarixli Sərəncamına uyğun olaraq həmin ilin 9-10 noyabrında Bakıda təşkil edilən qurultay oldu. Bu qurultay milli həmrəyliyimizin nümayişinin zirvəsi olmaqla yanaşı, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların Vətənlə əlaqələrinin möhkəmləndirilməsi, eyni zamanda diaspor quruculuğunun təkmilləşdirilməsi işinə öz böyük töhfəsini verdi. Ümummilli Lider həmin qurultayda çıxış edərək dünya azərbaycanlılarının həmrəyliyini vacib bir vəzifə kimi önə çəkərək bunun üçün zəruri olan istiqamətləri diqqətə çatdırdı.

Məhz bu mühüm tədbirdən sonra diaspor təşkilatlarının fəaliyyətində canlanma yarandı, dünya azərbaycanlılarını birləşdirən təşkilatlar daha aktiv fəaliyyət göstərməyə başladılar.

*Tarixi Qələbəyə, Zəfər Qurultayına...*

1993-cü ildə xalqımızı Milli Qurtuluşa, ölkəmizi müstəqillik yoluna çıxaran Azərbaycançılıq, milli həmrəylik ideologiyası 2003-cü ildən sonra beynəlxalq müstəvidə daha böyük hədəflər uğrunda mübarizəyə mayak oldu. Dövlət başçısı cənab İlham Əliyevin bu sahədə gördüyü işlər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Vətənə bağlılıqlarının artırılmasına mühüm töhfələr verdi. Eyni zamanda keçirilən qurultaylar ölkədən kənarda yaşayan soydaşlarımızın Azərbaycanla əlaqələrində mühüm rol oynadı. Prezident cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinin yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb oldu. Ölkə başçısının 2008-ci il noyabrın 19-da imzaladığı Fərmanla isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı, dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edildi. Bundan 3 il sonra – 2011-ci il iyulun 5-də Dünya Azərbaycanlılarının III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayları keçirildi. Qurultaylar düşmən təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynayaraq dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların birlik və həmrəyliyinin təntənəsinə çevrildi.

Ölkəmiz Azərbaycançılıq və milli həmrəylik ideologiyasının ən böyük təntənəsini isə 2020-ci ildə yaşadı. Dünyanın müxtəlif yerlərində yaşayan böyükdən-kiçiyə hər bir azərbaycanlının ürəyi anbaan Vətənimizlə, haqq, ədalət savaşına çıxan oğullarla döyündü. 44 gün davam edən Zəfər yürüşümüz xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarının dəstəyindən də güc alaraq xalq-ordu-lider həmrəyliyi sayəsində Böyük Qələbə ilə yekunlaşdı. II Qarabağ müharibəsində qazandığımız Zəfər milli dövlətçilik salnaməmizdə ona görə müstəsna əhəmiyyətə malikdir ki, bu Böyük Qələbə möhtəşəm tarixi günlərimizə vəsilə olur, qürurun ardınca qürur gətirir. Bu baxımdan 2022-ci il aprelin 22-də qələbəmizin simvolu sayılan Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsi də dünyanın ən müxtəlif məkanlarında yaşayan həmvətənlərimizə fəxarət hissi yaşatmaqla illərlə aparılan təbliğat, təşviqat kampaniyalarının hədər getmədiyini göstərdi. Bu möhtəşəm tədbir tarixə dünya azərbaycanlılarının Zəfər qurultayı kimi yazıldı. Ölkə başçısı cənab İlham Əliyev həmin qurultayda çıxış edərək deyib: ***"Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun, öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik... Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya ermənliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq".***

*Naxçıvandan ucalan Azərbaycançılıq, həmrəylik sədaları...*

Milli həmrəylik, Azərbaycançılıq ideyasının müəllifi Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olan 2023-cü il ölkəmizin ictimai-siyasi həyatına mühüm yeniliklər gətirən hadisələrlə yadda qaldı. Ulu Öndərin 100 illik yubileyi ölkə və beynəlxalq miqyasda, o cümlədən Onun dünyaya göz açdığı Naxçıvanda silsilə tədbirlərlə geniş şəkildə qeyd olundu. Bu münasibətlə qədim Azərbaycan torpağında 2023-cü il 12-18 avqust tarixlərdə Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev – 100 Diaspor Gənclərinin IV Yay Düşərgəsi" təşkil edildi. Düşərgə milli həmrəyliyimizin növbəti təntənəsi kimi harada yaşamasından asılı olmayaraq, qəlbi Vətən üçün döyünən gənclərin məlumat mübadiləsi, tanışlığı baxımından yeni üfüqlər açmaqla xaricdə fəaliyyət göstərən ayrı-ayrı diaspor təşkilatlarının fəaliyyətində gəncliyin mövqeyinin daha da möhkəmlənməsinə vəsilə oldu.

Birliyimizin ən böyük təntənəsi kimi sentyabrın 19-20-də Müzəffər Ali Baş Komandanın əmrinə müntəzir olan Azərbaycan əsgər-zabiti lokal xarakterli antiterror tədbirləri ilə 24 saatdan da az bir müddətə Qarabağda məskən salmış qondarma rejimi süquta uğratdı, ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olundu. Bu mənada, ölkə Prezidenti seçilməyinin 20-ci ili tamam olan cənab İlham Əliyev adını son 200-300 ildə itirilən torpaqları bərpa, ərazi bütövlüyünü, suverenliyi təmin edən yeganə Qalib Lider kimi tarixə qızıl hərflərlə yazdırdı.

32 il bundan öncə Azərbaycançılıq, milli həmrəylik ideyasının əsasının qoyulduğu Naxçıvan 2023-cü ildə həm də bir ürəkdə iki canın – Türkiyə və Azərbaycanın birliyinin, tərəfdaşlığının daha da möhkəmləndirilməsinə töhfələr verdi. Belə ki, sentyabrın 25-də bu qədim türk yurdu növbəti Türkiyə və Azərbaycan prezidentlərinin görüşünə, bir sıra tarixi-siyasi addımların atılmasına şahidlik etdi. Regionda böyük nüfuz sahibi olan hər iki lider siyasi elitaya mühüm mesajlar verdilər, siyasi müttəfiqliyə, etibarlı tərəfdaşlığa xidmət edən anlaşma memorandumu, saziş, niyyət protokolu imzalandı. Naxçıvan görüşü regionun siyasi, iqtisadi mənzərəsini dəyişdirəcək ən mühüm tarixi hadisənin – İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasiminin keçirilməsi, eyni zamanda dünyada nümunə olan iki ölkə liderinin birgə hərbi obyekt açılışı etməsi ilə də mühümlüyünü bariz şəkildə sübut etdi...

2023-cü ildə Naxçıvan növbəti həmrəylik bayramına – "Qərbi Azərbaycana qayıdış" festival-konqresinə ev sahibliyi etdi. Noyabrın 23-24-də keçirilən bu möhtəşəm tədbir Qayıdış Konsepsiyasının icrası prosesinə təsir göstərəcək elmi-siyasi əhəmiyyətliyi ilə seçildi. Festival-konqresdə ölkə Prezidenti cənab İlham Əliyevin qərbi azərbaycanlılar məsələsində daim nümayiş etdirdiyi prinsipial mövqe, onların hüquqlarının bərpa olunmasına və öz doğma torpaqlarına qayıtmasına qəti və birmənalı dəstəyi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası ilə bağlı tapşırıqları bütün mahiyyəti ilə izah olundu, haqq-ədalətin bərpasının vacibliyi barədə dünya ictimaiyyətinə elmi əsaslara söykənən fundamental mesajlar verildi. Dövlət başçımızın ***"Biz torpağımıza tankla, topla deyil, dinc şəkildə qayıtmaq istəyirik"*** ideyası festival-konqresin işinin əsas qayəsinə, devizinə çevrilməklə iştirakçı ziyalı və alimlərin məruzələrində, müsahibələrdə diqqətə çəkilən əsas məqamlardan oldu...

Azərbaycançılıq, milli həmrəylik sədaları bu gün dünyanın dörd bir tərəfindən – Amerikadan, Rusiyadan, Almaniyadan, Türkiyədən, əzəli-əbədi yurd yerlərimiz Xankəndidən, Şuşadan, Laçından, Zəngilandan, Naxçıvandan, bütöv Azərbaycandan ucalır. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar 102 yaşlı "Şərq qapısı" qəzeti dekabr ayında işıq üzü görən hər nömrəsi ilə oxucularına aşılayır "Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılığ"ı. "Azərbaycançılıq ideologiyası milli həmrəyliyimizin təməlidir", – deyən İstanbul Piri Rəis Universitetinin professoru Mübariz Həsənov vahid ideya ətrafında sıx birləşən həmvətənlərimizin həmrəyliyə, qardaşlığa xidmət edən tədbirlərindən danışır, Almaniyanın Berlin şəhərində yaşayan Şəhanə Hüseynova Azərbaycanı dinlədiyi əvəzolunmaz mahnıya bənzədir, Çexiyada reallaşdırdığı layihələrdən söhbət açan Leyla Begim "Dünyanın ən yaxşı səfiri mədəniyyətdir" qənaətinə gəlir, ilk türk Nobel mükafatçısı Əziz Sancarın azərbaycanlı tələbəsi Xaqani Eynullazadə Azərbaycan və beynəlxalq elmi cəmiyyətlər arasında körpülərin qurulmasına töhfə vermək məqsədini dilə gətirir, Belçikanın Brüssel şəhərindən Cahangir Abdullayev ölkəsini görmədən yetişən Vətənə aşiq gənclikdən qürurla danışır... Milli həmrəylik bayramımızın sədalarını Zəngəzur dəhlizindən keçməklə Naxçıvandan-Zəngilana gedən qatarda, avtomobildə eşitmək diləyi ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günümüz mübarək olsun!

**Nail ƏSGƏROV**

*Köşə yazısı*

## Güldanda saxlanan həsrət qoxulu tikanlı məftillərin xatirəsi



**Aidə İBRAHİMOVA**

*Araz, Araz, xan Araz!*
*Sultan Araz, xan Araz!*
*Çayın, çeşmən qurusun,*
*Mənim təki yan, Araz!*

1989-cu ilin dekabrı... Araz boyunca əllərimiz kimi illərdir, könlümüzü də incidən həsrət qoxulu tikanlı məftillər...

Lil sularına qərq olmuş Xan Arazın sükutunun sonuncu akkordları və hər iki taydan həsrət dolu baxışların kəsişməsinə şahidlik edən zamanın tükənən səbri... Və bu səbri daha da zorlayacaq tikanlı məftillər... O tikanlı məftillər ki "sərhəd hərəkatı" zamanı illərin həsrətinə son qoyaraq o taylı, bu taylı azərbaycanlılar tərəfindən söküldü və bir parçası da həsrətin rəmzi olaraq evlərdə xatirə kimi saxlanıldı. Həmin dövrə şahidlik edən insanların ailələrində bu xatirə indiyədək də saxlanılır. Təbiidir ki, bizim də evdə bir parça kəsilmiş tikanlı məftil var. Uşaq yaşlarıma təsadüf etdiyindən o vaxt çox da anlamırdım mənasını. Anam onu güldanda güllərin içərisində saxlayırdı. Böyüdükcə artıq dərk etməyə başladım bu xatirənin nə olduğunu. Əslində, elə də uzaq tarix deyil, amma şahidlik etdiyimiz bu təqvim bizim üçün çox müqəddəsdir. Məhz həmin dövrdən həmrəyliyimizin əsası qoyuldu. Tarixin qərdişlərinə sinə gərən Azərbaycan xalqı öz ənənələrinə sadiq qalaraq bu həmrəyliyi milli birliyə çevirərək daha da gücləndirdi. Bəli, məhz həmin gün – 1989-cu il dekabrın 31-də biz bir daha həmrəyliyimizi dünyaya nümayiş etdirdik.

Bu gün dünyanın istənilən nöqtəsində və hansı peşənin sahibi olmasına baxmayaraq, bütün azərbaycanlılar bir amal uğrunda birləşiblər. Bu birliyin əsasında isə 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında uzaqgörən siyasətçi Ulu Öndər Heydər Əliyevin ***"Fəxr edirəm ki, mən azərbaycanlıyam!"*** sözləri dayanır. Hafizəmizdə dərin iz buraxan bu kəlam illər sonra bizi Vətənimizin ərazi bütövlüyü uğrunda yenidən səfərbər etdi. 2020-ci ilin sentyabr ayında başlayan və cəmi 44 gün çəkən Vətən müharibəsində qazandığımız Zəfər Ulu Öndərimizin bu dahi kəlamlarını bir daha qürurla təkrar etməyimizə vəsilə oldu. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi və qətiyyəti ilə həmrəy olan xalqımız tikanlı məftilləri qırdığı kimi, tarixi torpaqlarımızda da erməni mifini dağıdaraq ərazilərimizi işğaldan azad etdi. Beləliklə, Dünya Azərbaycanlılarının Həmrəyliyi, xalqımızın öz Lideri ətrafında birləşməsi növbəti tarixi Qələbəmizlə nəticələndi. Buna görə də bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü iftixar hissi ilə, qürurla qeyd edirik və bundan sonra da qeyd edəcəyik.

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



## Azərbaycan-Qazaxıstan qardaşlığının uğurlu inteqrasiyası

"Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq" rubrikasının qonaqlarından biri də Qazaxıstandan Vətəninə salam və qucaq dolu sevgi yollayan İlkin Orucovdur. "Azərbaycan Mərkəzi" İctimai Fondunun direktoru olan müsahibimiz 2013-cü ildə Belqorod Dövlət Milli Tədqiqat Universitetinin Mədəniyyətlərarası Rabitə və Beynəlxalq Münasibətlər bölümünü bitirib və Moskvada Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasında magistratura təhsili alıb. Ölkəsinə qarşı dərin sevgi bəsləyən, Vətəndən uzaqda olsa da, qəlbən yurduna bağlı olan həmsöhbətimiz indi yüz mindən çox azərbaycanlının yaşadığı Qazaxıstanda xalqımızı təmsil edir. İlkin Orucov öz fəaliyyətindən belə danışır: "Qazaxıstan və Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi böyük tərəqqi və nailiyyətlər bütün müstəqillik dövründə regionda sülhün və sabitliyin təmin olunmasında mühüm rol oynayıb. Bu ölkələrin bir-biri ilə birlik və həmrəyliyinin təşviqi həm Türk dünyası, həm də bütövlükdə, beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.





Müsahibim bildirdi ki, 2023-cü ilin fevral ayında "Azərbaycan Mərkəzi" İctimai Fondu yaradılıb. "Azərbaycan Mərkəzi" ölkənin aparıcı universitetlərindən biri sayılan Şahmardan Yesenov adına Xəzər Texnologiya və Mühəndislik Universitetində yerləşir.

Burada həmvətənlərimiz üçün bir çox imkanlar yaradılıb. "Azərbaycan Mərkəzi"ndə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə dil kursları fəaliyyət göstərir və mərkəzdə soydaşlarımız Azərbaycan dilini öyrənə bilirlər. Qazaxıstan Respublikası və Azərbaycan Respublikası vətəndaşlarına hüquqi və mənəvi dəstək göstərmək məqsədilə cari ilin sentyabr ayında "Konsultasiya kabineti" adlı sosial əhəmiyyətli layihəyə start verilib.

Bu ilin ilk və genişmiqyaslı tədbirlərindən biri də Azərbaycan Respublikasının Gənclər Günündə ilk "Azərbaycan-Qazaxıstan Gənclər əməkdaşlıq forumu"nun keçirilməsi idi.

Aktauda bu il Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş böyük bayram konserti, Xalq yazıçısı Elmira Axundovanın qazax dilində "Zərifə və Heydər Əliyev – əbədi sevgi" kitabının təqdimatı yaddaqalan olub.

Müsahibimiz onu da qeyd etdi ki, bu bayram bizim üçün dərin məna kəsb edir. "Dəmir yumruq" kimi birləşərək, eyni məqsəd, eyni qayə uğrunda çalışaraq güclü Azərbaycan üçün hər zaman həmrəy olduğumuzun bütün dünyaya bəyan edildiyi gündür. Dəmir həmrəyliyimiz inanırıq ki, əbədi olacaqdır. Birlikdən qüvvət doğar, biz də birlikdə daim güclü olacağıq.

**Sürəyya QƏDİMƏLİYEVA**

## Dünya azərbaycanlılarının həmrəyliyi tarixi Qələbəmizi daha inamlı etdi



***Elçin ƏLİBƏYLİ***
***Vistula Universitetinin magistr tələbəsi, Polşa, Varşava***

Mən Naxçıvanda doğulmuşam, Naxçıvan şəhərindəki 2 nömrəli tam orta məktəbi bitirmişəm. Naxçıvan Dövlət Universitetinin Turizm və otelçilik ixtisasında ali təhsil almışam. Bu il təhsilimi bu istiqamətdə peşəkarlaşmış təhsil müəssisəsində davam etdirmək qərarına gəldim. Artıq bir neçə aydır ki, Polşadayam və Varşavanın Vistula Universitetində magistr təhsili alıram. Bu mənim həyatımdakı ilk xarici ölkə təcrübəmdir. Burada mənimlə birlikdə onlarla azərbaycanlı tələbə təhsil alır, işləyir və həyatlarını burada davam etdirirlər. Mən burada, Vətənimizdən uzaqda belə bir daha xalqımızın birlik və bərabərliyinin şahidi oluram. Varşavaya gəldiyim ilk gündən bəri köməyə ehtiyacım olduğu hər an tanıdığım hər bir azərbaycanlı mənim üçün əlindən gələn köməkliyi göstərib.

Xaricdə təhsil alan biz azərbaycanlı gənclər olaraq oxumaqla, öyrənməklə bərabər, həm də ölkəmizi təmsil edirik. Ona görə doğma ölkəmizi tanıtmaq işində fəallıq göstəririk. Bütövlükdə, bir azərbaycanlı tələbə onlarla, hətta yüzlərlə əcnəbi ilə bir yerdə oxuyur, bir yerdə yaşayır. Əcnəbilərdə həmyerlilərimiz vasitəsilə ölkəmiz haqqında ilk təsəvvürlər formalaşır. Yəni onların əksəriyyəti Azərbaycanı görməyib, ölkəmiz haqqında konkret bir fikirləri yoxdur, məlumatları yoxdur. Bizim simamızda onlar Azərbaycanı, Azərbaycan xalqını tanıyırlar. Ona görə də biz bu amilə xüsusi diqqət yetiririk.

Bildirmək istəyirəm ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan xalqının birlik şüarının, Azərbaycançılıq ideologiyası ətrafında birləşməyinin simvolik günüdür. Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılar ilə əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Bu günün yüksək səviyyədə qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilib. Ola bilər ki, ölkədə yaşayanda bunu çox adam hiss etməsin, bu günün mahiyyətinə varmasın. Amma ölkədən kənarda olanda bu möhtəşəm günün gücünü və həmrəyliyimizin əks-sədasını daha çox hiss etmək olur. Başqa ölkələrdə bir-birinə dayaq olan, kömək əlini uzadan həmyerlilərimizi görəndə, onlarla birlikdə müəyyən tədbirlərdə, dərnəklərdə iştirak edəndə Vətəndən uzaqdakı həmrəyliyin nə qədər vacib olduğunu, eyni zamanda öz xalqınla həmrəy olmağın dövlətimiz üçün nə qədər əhəmiyyət daşıdığını bir daha anlayırsan və bunu şəxsən yaşayırsan.

Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. İndi həmrəylik gününü, hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər. Bu isə daha çox qürurvericidir. Dünya azərbaycanlılarının həmrəyliyi Qələbəmizi daha inamlı etməsində də özünü göstərdi. Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə oldu.

*Əziz xalqımız, dəyərli həmvətənlərimiz! Sizin hamınızı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, doğma Azərbaycanımıza isə daha işıqlı gələcək arzulayıram!*

## Ən çox darıxdığımız həm də milli yeməklərimizdir

Mən Babək rayonunda doğulmuşam, ali təhsilimi Azərbaycan Dövlət İqtisad Universitetində almışam. 2020-ci ildən Polşaya köçmüşəm, hazırda Krakov şəhərində yaşayıram və burada magistr təhsili alıram. Üç ildir ki, Azərbaycandan kənardayam. Ancaq onu deyim ki, Polşada azərbaycanlılar çox yaşayır və təbii ki, bu da hər birimizi sevindirir, xüsusilə də yeni gələnləri. Çünki tez-tez görüşürük və bir-birimizlə ünsiyyətdə oluruq. Başqa Avropa ölkələrindən fərqli olaraq Polşa həm də azərbaycanlıların ən çox bizneslə məşğul olduğu ölkədir. Buna görə də mən mövzuya bu istiqamətdən yanaşmaq istədim. Buradakı biznes sahələri içərisində restoranlar çoxdur. Bu isə Azərbaycan milli yeməklərinin tanıdılması baxımından çox gözəldir. Həmin restoranlara misal olaraq "Zeytun" və "Abşeron" restoranlarını göstərə bilərəm. Burada Azərbaycan mətbəxinin şah yeməkləri olan plov, dolma, xaş və dovğa çox gözəl bişirilir. Şirniyyatlarımızdan paxlava, şəkərbura damaqlarımızın dadıdır. Xüsusilə də Novruz bayramı ərəfəsində burada özümüzü Azərbaycandakı kimi hiss edirik. Novruz bayramı demişkən, Polşada həmvətənlərimiz, demək olar ki, hər bayramda bir yerə toplaşır, yerli bələdiyyələrdən icazə alaraq, hətta tonqallar belə qalayaraq Novruz adətlərimizi yaşadırıq. Krakov, Varşava kimi şəhərlərdə Azərbaycan məhsullarının satıldığı çoxlu marketlər var ki, bu, Azərbaycanın iqtisadi potensialının tanıdılması cəhətdən çox yaxşıdır.



**Əli HÜSEYNLİ**
***magistr tələbəsi, Polşa, Krakov***

Digər bir mühüm məqam da Polşada yaşayan azərbaycanlıların Vətən müharibəsi dövründə göstərdikləri birlik idi. Həmvətənlərimiz dəfələrlə etiraz aksiyaları təşkil etdilər. Hətta Berlində erməni səfirliyinin qarşısında təşkil olunan etiraz aksiyalarında fəallıq göstərdilər, öz imkanları hesabına bir çox şəhərlərdə təşkil olunan tədbirlərdə birlik nümayiş etdirdilər.

Ümid edirəm ki, xalqımız bir də heç vaxt müharibə ilə sınağa çəkilməyəcək və mən fürsətdən istifadə edib bütün şəhid ailələrinə başsağlığı verirəm, şəhidlərimizə Allahdan rəhmət diləyirəm, ruhları şad olsun. Həmrəyliyimiz daimi olsun.

## Koreyalı dostlarımızdan Azərbaycana səfər edənlər çoxdur

**Ümman Lee – Rzayeva**



Mən Naxçıvanda doğulub böyümüşəm. Sonra tale elə gətirib ki, Cənubi Koreyada yaşamağa başlamışam. Koreya bizim Vətənimizdən kifayət qədər uzaq ölkədir. Ona görə də burada yaşayan insanlar Azərbaycan haqqında o qədər də çox informasiyaya sahib deyillər. Həm də burada yaşayan həmvətənlərimizin də sayı çox deyil. Buna görə də əlimə düşən hər fürsətdə Azərbaycanı tanıtmaq üçün ətrafımda olan, müəyyən qədər tanıdığım koreyalılara Azərbaycan haqqında mütləq məlumat verirəm. Ölkəmizin harada yerləşdiyi, hansı ölkələrlə qonşu olduğu, bugünkü mənzərəsi, adət-ənənələri, yeməklərimiz haqqında danışıram.

Ölkəmizin burada tanıdılması üçün ən maraqlı məqamlardan, yaranan fürsətlərdən biri də Koreya televiziyalarındakı verilişlərə dəvət almağımdır. Koreyada məşhur "Youtube" kanallarından da çox dəvət almışam. Orada da Azərbaycanın bugünkü mənzərəsi haqqında dolğun məlumat vermişəm. "Youtube" çəkilişləri maraqla qarşılandığı üçün anamı və qardaşımı da bu layihəyə dəvət etmişdilər.

Ətrafımızdakı dostlarımıza – koreyalılara Azərbaycan haqqında məlumat verdiyimiz üçün ölkəmizə səyahət edib Bakı, Sumqayıt, Naxçıvan, Füzuli şəhərlərini ziyarət edən dostlarımız var. Gələcəkdə səfər etmək istəyənlər də az deyil.

Müharibə zamanında ölkəmiz üçün Koreyadakı bir çox həmyerlilər bir araya gəlib informasiya müharibəsində əllərindən gələni etdilər. Həmin dövrdə Koreya televiziya kanallarının birində ölkəmiz haqqında səhv məlumat yayımlanmışdı. O xəbəri internetdən – kanalın saytından sildirmək üçün Koreyada tanıdığım bütün azərbaycanlılara xəbər verib müraciət başlatdım. Hər kəs etiraz e-maili yazdı. Düzgün informasiyanı hazırlayıb kanallara göndərdikdən sonra yanlış xəbər kanal tərəfindən silindi.

## Vətəndən uzaq olsaq da...

Mən Rusiyanın İrkutsk şəhərində, Azərbaycan ailəsində dünyaya gəlmişəm. 2002-ci ildə Bakıya, 2011-ci ildə isə İspaniyanın Torrelaveqa şəhərinə köçmüşəm. Ailəliyəm, 3 övladım var. Hər üçü İspaniyada dünyaya gəlib və hazırda burada təhsil alır.

Vətəndən kənarda yaşamaq, yeni ölkəyə, yeni insanlara və yeni adətlərə adaptasiya olmaq, həqiqətən də, çətindir. Lakin insan təbiəti hər bir mühitə öyrəşməyə qadirdir.

Onu da deyim ki, Vətəndən uzaqlarda da milli dəyərlərimiz bizimlədir.

Biz hər nə qədər fərqli ölkədə olsaq da həmişə milli bayramlarımızı qeyd edir, tez-tez burada yaşayan həmvətənlərimizlə görüşüb Vətəndəki günlərimizi yad edirik. Azərbaycanın həm sevincinə, həm də kədərinə şərik oluruq. Bunun ən bariz nümunəsi isə 44 günlük Vətən müharibəsidir.

Həmin dövrdə bizim də qəlbimiz xalqımızın, əsgərlərimizin yanında idi. Ön cəbhədə ola bilməsək də, informasiya cəbhəsində fəal idik. Buradakı ispanları məlumatlandırır, sosial şəbəkələrdə ölkəmizi layiqincə təmsil etməyə çalışırdıq. Bu gün isə bir azərbaycanlı olaraq öz övladlarıma bu dəyərləri aşılayır, onları vətənpərvər ruhda böyütməyi özümə borc bilirəm.

**Emiliya ASLANOVA**
***İspaniya, Torrelaveqa***

## Öz məsuliyyətimizi dərk etməliyik

Mən hazırda İtaliyanın Siena şəhərində Diplomatiya ixtisası üzrə ikinci kurs tələbəsiyəm. Ümummilli Lider Heydər Əliyevin həyat yolu hər zaman mənim üçün qaranlıq yolda işıq kimi olub. Onun sözü ilə yola çıxsaq, ***"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".***

Bu səbəbdən Ulu Öndərimizin yolu ilə davam edərək oxuduğum ixtisasa əsasən ölkəmizin xarici siyasəti üçün özümü tam bir kadr olaraq yetişdirməyə çalışıram. Bu hər bir Azərbaycan gəncinin borcudur. Ölkəmizin, sadəcə, daxili siyasəti üçün deyil, xarici siyasəti üçün də çalışmalıyıq. Azərbaycan Respublikasının milli dəyərlərini, mədəniyyətimizi, ölkəmizin son illərdə qazandığı zəfərləri hər kəsə olduğu kimi çatdırmalıyıq. Xarici ölkələrdə yaradılan Azərbaycan diaspor təşkilatları elə buna çalışırlar. Bizə verilən bütün şanslardan düzgün istifadə edib ölkəyə layiqincə xidmət etməli, öz məsuliyyətimizi dərk etməliyik.

**Ləman ƏLƏKBƏROVA**
***İtaliya,Toskana-Siena şəhəri***
***Universita degli studi di Siena - PC Diplomacy***



# "Snowfest" – qış nağılının rəngarəng personajları

Naxçıvanda bu il 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı möhtəşəm və fərqli bir ab-hava ilə qeyd edilir. Nağıllarda olduğu kimi biri vardı, biri yoxdu deyib, biz də bu nağıllar dünyasına üz tutduq. İlin sonuna sayılı günlər qalan bu müddətdə, şəhərin mərkəzi sanki nağıllar aləmini özündə yaşadır. Bəzədilmiş böyük şam ağacının ətrafına toplaşan, böyükdən-kiçiyə hər kəsin sevimlisi olan nağıl personajları özünəməxsus şən, ürəkaçan zarafatları ilə bu ünvana üz tutan şəhər sakinləri və qonaqlara xoş bir ovqat bəxş edirlər. Bizim də marağımızı çəkən ən çox bu əylənceli personajlar oldu. Balacaların sevimli qəhrəmanları ilə görüşü, sözün əsl mənasında, nağıllar aləminə səyahətdir. Bunu onlarla olan söhbətimiz də təsdiq etdi. Hər kəsin birbiri ilə mehribancasına bayramlaşması, orada keçirdiyi anları xoş ovqatla dəyərləndirərək fotolara həkk etmələri bu maraqlı aləmdə uşaqların necə xoşbəxt olduqlarını göstərir. Qış nağılının əsas qəhrəmanları olan Şaxta baba və Qar qızla görüşərək arzularını bildirmək, qarşıdan gələn yeni ilə olan böyük bir inamın təcəssümüdür. Bayram əhvali-ruhiyəli nağıllar aləminə üz tutan hər kəs xoş arzulu, ümid işıqlıdır.







Xeyli gəzib əyləndikdən sonra, göydən üç alma düşdü deyə maraqla dinlədiyimiz nağılların sonluğundakı kimi, Naxçıvan şəhərində yaradılmış nağıllar aləmində arzularımızın çin olacağına inanırıq. İnanırıq ki, qarşıdan gələn yeni ildə Ordubaddan Zəngəzura açılacaq böyük dəhlizdə həmrəylik sədalı addım səslərimiz eşidiləcək.



✍ **Aidə İBRAHİMOVA**













# İstedada xəyanət etməyən sənətkar

## *Kamal Babayevin 70 yaşına ehtiramla*



Kamal Babayevin ifalarıyla yaşayıram bir neçə gündür. Elə-belə yox. Səbəbsiz deyil bu el sənətkarının ifalarına baş qoyub xəyala dalmaq. Fotoları gözdən keçirdim. 2012-ci ilin isti avqust günlərində qardaş Türkiyənin Gümüşhanə şəhərinə mədəniyyət festivalına yola düşmüşdük. "Şərur" Xalq Yallı Ansamblı ilə birlikdə şair kimi mən də o tədbirə qatılmışdım. Yollar doğmalaşdırır adamları. Kamal müəllimlə də, beləcə, doğmalaşmışdıq. Əvvəldən bir-birimizi tanısaq da, Gümüşhanə səfəri bizi tanışlıqdan doğmalığa doğru istiqamətləndirdi. İndi həmin günlərin şəkilləri özüylə birlikdə xatirələri göz önünə gətirdi və internetin köməyi ilə Kamal Babayevin qara zurnası üçün darıxan könlümə musiqi səpmək istədim. Bu səs məni uşaqlığıma qaytarır. 1980-ci illərin əvvəllərinə. Elə bilirəm yenə dayılarımın toyundayam, o səs məni Şərur rayonunun Çomaxtur kəndinə aparır. Səsin qüdrəti elə ondadır ki, səni keçmişə bağlaya bilir. Yaddaşını təzələməyi bacarır. "Köçəri" üstündə, "Tənzərə" havasında, "Höynəri" ayağında, "Tello" qaçarağında, "Cəngi" hünərində məni də o cərgəyə qoşdu zurna səsi.

Kamal Babayevin bu yaxınlarda 70 yaşı tamam olacaq. Onun ömür yoluna da nəzər salmaq keçdi içimdən. Elə yaxşı ki, keçdi. Şəkillərin yaddaşı, insanların yaddaşından uzun olurmuş.

*Bir haşiyə çıxım:* Kamal Babayev 1954-cü il yanvar ayının 1-də Şərur rayonunun Billava kəndində anadan olub. Gözünü açandan evdə, həyətdə, el məclislərində, toy-düyündə eşitdiyi zurna səsinə aşiq olub. Bu sənətin sirlərini də uşaq vaxtlarından böyük qardaşı rəhmətlik Kamildən öyrənməyə başlayıb. Yeniyetmə vaxtlarında – 16-17 yaşlarında ilk dəfə öz auditoriyası – tamaşaçısı qarşısına çıxıb. 1970-ci illərə təsadüf edən bu vaxtdan etibarən doğulub boya-başa çatdığı Şərur diyarının adıyla bağlı olan yallıların ifaçısı kimi püxtələşib. Kamal Babayev tütək, balaban və qara zurnada milli rəqslərimizi, el havalarını, yallıları xüsusi məhəbbət və məharətlə ifa edərək 45 ildir, bir musiqiçi – nəfəs alətləri ifaçısı kimi Azərbaycanın milli sərvəti olan yallıların qorunub saxlanmasına, ölkədə və xaricdə təbliğinə xidmət edib.

Hələ gənc yaşlarında öz sənətinin mahir ifaçısına çevrilən Kamal Babayev 1975-ci ilin may ayında "Şərur yallıları" haqqında 35 dəqiqəlik sənədli televiziya filminə çəkilib, 1977-ci ildə ümumittifaq festivalında laureat medalı ilə təltif olunub.

"Şərur" Xalq Yallı Ansamblı ilə birlikdə müxtəlif ölkələrdən Naxçıvana mükafat kimi "Qızıl açar", "Qızıl balta" nişanları, medallar, diplomlar gətirməkdən yorulmayıb. Yallıların elə nadir növləri var ki, bu gün onların hamısını çox az insan bilər. Belə qənimət adamlardan olan Kamal Babayev Şərur yallılarını özündən əvvəlki nəsillərdən alıb özündən sonrakı nəsillərə ötürməyi bacaran sənətkardır.

Yallılara bu sevginin nəticəsidir ki, uzun illərdir, Şərur rayonunda fəaliyyət göstərən yaşlılardan ibarət "Nurani", uşaqlardan ibarət "Şərur qönçələri", eyni zamanda yeniyetmələrdən ibarət "Şərur" Xalq Yallı ansambllarını qara zurnada, balabanda, tütəkdə müşayiət edib. Hətta ən qədim yallılarımızın qara zurnada ifası Avropanın musiqi paytaxtı kimi bilinən Avstriyanın başkəndi Vyanada hazırlanan diskdə buraxılıb.

Bu yerdə onu da vurğulamaq lazımdır ki, mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində müstəsna rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə yallılarımız "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqs-



ləri" YUNESKO-nun Təcili Qorunma siyahısına daxil edilib. Şübhəsiz, bu uğura nail olunmasında Şərur yallılarının qara zurnada ifaçısı kimi Kamal Babayevin də rolu az olmayıb. Milli musiqi mədəniyyətimizin, folklorumuzun inkişafında xidmətlərinə görə 2008-ci ildə ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına və 2012-ci ildə Prezident mükafatına layiq görülüb.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, ustad tarzən Əkrəm Məmmədov qeyd edir ki, "Kamal Babayev "Şərur" Xalq Yallı Ansamblının döyünən ürəyidir".

Kamal müəllimin qaragül dərisindən bir buxara papağı var. O papaqlı obrazı gözlərimin önündə canlanında elə bilirəm, bəs yenə oğuz eli toplaşıb, toy-düyün çadırları qurulub, ozanlar bir tərəfdən hazır dayanıb, el igidləri oxlarını çiyinlərindən aşırıb qılınclarının tiyəsindən yapışıblar, gənc oğlan və qızlar milli geyimlərində səf-səf düzülüb yallı hazırlığındadırlar. Kamal Babayev də öz qara zurnasını sol əlində düz ürəyinin üstündə tutub. Hamı "Dədə Qorqud"un xeyir-dua verməsini gözləyir. El sənətkarının bu ağır yerişli görkəmiylə xəyal səyahətinə çıxanda akademik İsa Həbibbəylinin "Harada yallı varsa, Oğuz babalarımızın məskənidir, yallı Oğuz babalarımızın möhürüdür" fikri alıb aparır məni. Şərur da Oğuz elidir. Adı "Dədə Qorqud" dastanlarının yer-yurdları arasında çəkilən məkandır. Azərbaycan musiqisinin misilsiz ustadı Üzeyir Hacıbəyov da boşuna deməyib: "Yallının vətəni Şərurdur, yallı Şərurda doğulub".

Şərurda təkcə yallı doğulmayıb. O yallıları öz qanında, canında genetik irs kimi daşıyan sənətkarlar – da doğulub. Kamal Babayev də onlardan biridir.

Fikirlərə dalıb yenidən Kamal Babayevin ifasında "Cəngi" havasına köklənirəm. Azərbaycan xalqının son illərdə, son aylarda, son günlərdə bütün ruhu elə bilirəm ki, "Cəngi" havasına köklənib. Kamal Babayev "Cəngi" havasını zurnada ifa edir, yumruq olan xalq isə yallı birliyi kimi səf-səf düzülüb.

*Elə bilirəm ki, Koroğlunun Hasan paşanın üstünə yeridiyi məqamdayam, ya da Dəmirçioğlu ona verilmiş pulu baş barmağıyla sürtüb yazılarını silir, yaxud, "Dədə Qorqud" dastanından çıxıb gələn Beyrək bacılarının sərdiyi süfrədə lavaşdan kəsib iştaha ilə yeyir, hətta Qaraca Çobanın yopyoğun ağacı kökündən qopardığı gücü yadıma düşür. Çünki varlığıma yaxın olan bir səsi eşidirəm uzaqdan. Kamal Babayev gözlərini yumub qara zurnasını elə havalar üzərində üfləyir ki, ruhum canımdan çıxır. Amma bu candan çıxma can alma deyil, can vermədir.*

*Məşhur rəssamlardan birinin belə bir sözü var: "Bu rəsmləri mən çəkmirəm. Əlimdən tutan biri var". Elə o fikrə söykənib deyə bilərəm ki, bu yazını mən yazmadım, əlimdən tutan bir qüvvə var idi. Bəlkə də, qiyamət günündə Sur səsini zurna avazıyla dəyişdirmə çağırışına razılığını bu yolla bildirmək istəyirdi Yaradan. Bəxş etdiyi istedada xəyanət etməyən bəndəsinə 70 illik yubiley təbriki kimi.*

**Elxan YURDOĞLU**

***şair-publisist, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Məhkəmələr arasında minifutbol turniri yekunlaşdı



*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən məhkəmələr arasında keçirilmiş minifutbol turnirinə yekun vurulub.*

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə keçirilən turnirdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 12 məhkəməni təmsil edən 8 komanda iştirak edib. Oyunların nəticələrinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi birinci, Kəngərli və Sədərək Rayon məhkəmələrinin birgə komandası ikinci, Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsi üçüncü yerin qalibi olub.

Turnirin bağlanış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxış edərək Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş tədbirin əhəmiyyətindən danışıb.

Sonda qaliblərin mükafatlandırılma mərasimi keçirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***


## Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti açıq tender elan edir

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti Araz Su Elektrik Stansiyasının əsaslı təmiri ilə bağlı layihələndirilməsi və yenidən qurulması işlərinin satın alınması məqsədilə açıq tender elan edir. Açıq tender elanı 30 dekabr 2023-cü il tarixdən *e-tender.gov.az* elektron portalında yerləşdirilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 1500 ( bir min beş yüz) manat məbləğində iştirak haqqını portalda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsaslı şərtlər toplusunu əldə edə bilərlər.

***(Əlaqələndirici şəxs – Hüseyn Bayramov, telefon: (050) 318-43-59; (036) 545-79-50; e-mail: office @nminenergy.gov.az)***

## *İtmişdir*

Şərur rayonunun Alışar kənd sakini İsmayılov Həsən Şəmil oğlunun adına olan JN-0037 nömrəli, 10207028 kodlu "Torpağın mülkiyyət hüququna dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Qışlaqabbas kənd sakini Məmmədov Aləm İbrahim oğlunun adına verilmiş JN-655A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 756